**Qida obyektlərinin qeydiyyatı və fəaliyyətinə icazə verilməsinə dair yeni yanaşmanın tətbiqi nəzərdə tutulub**

2023-cü il yanvarın 1-dən qüvvəyə minəcək “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu qida təhlükəsizliyi sistemi üzrə bir çox yeniliklərin hüquqi bazasını formalaşdırmaqla yanaşı, sahibkarlara dövlət dəstəyi siyasəti çərçivəsində bəzi inzibati prosedurların sadələşdirilməsini də nəzərdə tutur.

Qanuna əsasən, növbəti ildən etibarən qida obyektlərinin qeydiyyatı və fəaliyyətinə icazə verilməsinə dair yeni yanaşmanın tətbiqi nəzərdə tutulub. Belə ki, təsdiqi tələb olunmayan qida obyektlərinin qeydiyyatı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən 7 iş günü ərzində obyektin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilmədən aparılacaq. Həmçinin stasionar, modul və daşınan (nəqliyyat vasitələri, mexaniki qoşqular, avadanlıqlar və s.)  qida obyektləri ilə yanaşı, qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektləri, habelə obyekti olmadan fəaliyyət göstərən qida subyektlərini əhatə edəcək qeydiyyat prosesi üçün dövlət rüsumu nəzərdə tutulmayıb.

Təsdiqi tələb olunan qida obyektləri isə cavabdeh qida subyektinin ərizəsinin qeydiyyata alındığı tarixdən 30 iş günü müddətində AQTA tərəfindən obyektdə aparılacaq yerində qiymətləndirmə və götürülmüş məhsul nümunələrinin nəticələrinə əsasən təsdiq olunacaq və ya təsdiqdən imtina ediləcək. Qida obyektinin təsdiq olunması ilə bağlı reyestdən çıxarış üçün “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununa əsasən dövlət rüsumunun ödənişi nəzərdə tutulub.

Məlumat üçün bildiririk ki, qida təhlükəsizliyi qeydiyyatına və təsdiqinə dair müraciətlərin qəbulu prosesi tamamilə elektronlaşdırılacaq.